**Abdurahmanov Sh.Sh.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.8-16**
**UDC: 343.1**

# Tactical and psychological features of interrogation of minors

**Abstract**: The author considers the practical and psychological features of this juvenile problem.

The issues of creating psychological contact with minors, as well as the methods and methods used to obtain truthful testimony are revealed. In addition, there are the problems of resolving conflict situations, methods and means of overcoming the giving of false testimony by minors during interrogation in the article.

**Keywords**: juvenile; interrogation; preliminary investigation; investigation; tactical method; investigator; juvenile justice; victim; inquisition; interrogation tactics.

## References

1. Criminal Code of the Republic of Azerbaijan. Baku, Huquq Yayin Evi Publ., 2021, 780 p. (in Azerbaijani).
2. Criminal Procedure Code of the Republic of Azerbaijan. Baku, Huquq Yayin Evi Publ., 2022, 856 p. (in Azerbaijani).
3. Abdurahmanov Sh. Sh. et al. Criminalistcs. Textbook. Baku, 2010 (in Azerbaijani).
4. UN Minimum Standard Rules for the Execution of Juvenile Justice of 29 November 1985 (Beijing Rules) (Approved by the Law of the Republic of Azerbaijan dated May 31, 2002). Available at: https://e-qanun.az/framework/8487 // https://e-qanun.az/framework/1034 (accessed: 14.04.2022) (in Azerbaijani).
5. Criminalistics. Textbook. Baku, 2021 (in Azerbaijani).
6. Suleymanov J.I., Abdullayev S.A., Mahmudov A.M. Tactics of interrogation of the accused during the preliminary investigation. Baku, 2009. (in Azerbaijani).
7. Belkin R.S. Ocherki kriminalisticheskoy taktiki. Uchebnoe posobie [Essays on forensic tactics. Teaching aid]. Volgograd, VSM MVD RF Publ., 1993, 200 p.
8. Vasilyev A.N., Karneeva L.M. Taktika doprosa pri rassledovanii prestupleniyi [Tactics of interrogation under the investigation of crimes]. Moscow, Yur.lit. Publ., 1970, 208 p.
9. Gross Hans. Rukovodstvo dlya sudebnykh sledovateley kak sistema kriminalistiki [A guide for forensic investigators as a criminalistics system]. Moscow, LeksEst Publ., 2002, 1088 p.
10. Zakatov A.A. Psikhologicheskie osobennosti taktiki proizvodstva sledstvennyh deystviy s uchastiem nesovershennoletnih. Ucheb. posobie [Psychological features of the tactics of conducting investigative actions with the participation of minors. Teaching aid]. Volgograd, VSM Publ., 1979, 94 p.

♦ **Abdurahmanov Shair Sheyhali** – Senior Lecture of the Law Department of the National Aviation Academy (Azerbaijan). E-mail: samir_3082@mail.ru

11. Porubov N.I. Dopros v sovetskom ugolovnom protsesse i kriminalistike [Interrogation in soviet process and criminalistics]. Minsk, Vysheysha shkola Publ., 1968, 276 p.

12. Rukovodstvo dlya sledovateley. v 2 chastyah. pod red. V.V. Naydenova, P.A. Aleynika [Guide for investigators. in 2 parts. ed. by V.V. Naydenov, P.A. Aleynik]. Moscow, Yurid. lit Publ.,1981, 992 p.

13. Sarijalinskaya K.G. et al. Sledstvennaya taktika. Uchebnik [Investigative tactics. Textbook]. Baku, Prosveschenie Publ., 1991.

14. Yakimov I.N. Kriminalistika. Ugolovnaya taktika. Obschaya chast' [Criminalistics. Criminal tactics. General part]. Moscow, Kom. Akad. Publ., 1929, 312 p.

**Abdurahmanov Ş.Ş.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.8-16**
**UOT: 343.1**

## Yetkinlik yaşına çatmayan şəxslərlə keçirilən dindirmənin taktiki və psixoloji xüsusiyyətləri

**Xülasə:** Məqalə yetkinlik yaşına çatmayanların dindirilməsinin taktiki və psixoloji xüsusiyyətlərin araşdırılmasına həsr olunub. Müəllif bu problemin yuvenal problem olduğunu qeyd etməklə, ibtidai araşdırma zamanı yetkinlik yaşına çatmayanların dindirilmə prosesində tətbiq edilən metod və üsullardan istifadə edilməsini açıqlamağa cəhd edib. Bundan əlavə yetkinlik yaşına çatmayanlarla psixoloji əlaqənin yaradılmasının xüsusiyyətlərini açıqlayıb. Həmçinin məqalədə konfliktli (ixtilaflı) şərait yarandığı halda, onun həlli yollarını və yalan ifadə vermənin qarşısını almaq üzrə üsul və metodlar öz əksini tapmışdır.

**Açar sözlər:** yetkinlik yaşına çatmayan; dindirmə; ibtidai araşdırma; istintaq; taktiki üsul; müstəntiq; yuvenal ədliyyə; zərərçəkmiş; inkvizisiya; dindirmənin taktikası.

Yetkinlik yaşına çatmayan şəxslərin cinayət təqibini həyata keçirən xüsusi orqanların formalaşması, dünya ölkələrində müxtəlif dövrlərə təsadüf edir. Belə ki, bu orqanlar ABŞ-da hələ 1899-cu ildə, Kanadada 1908-ci ildə, İngiltərədə və Uelsdə 1905-ci ildə, Belçikada 1912-ci ildə, Fransada 1914-cü ildə,Yaponiyada isə 1923-cü ildə yaradılmışdır. Dünya təcrübəsində cinayət törətməkdə ittiham edilən yetkinlik yaşına çatmayanlar barədə cinayət mühakimə icraatının həyata keçirilməsinə yuvenal ədliyyə deyilir.

Yetkinlik yaşına çatmayan şəxslər öz yaş səviyyəsinə və psixoloji vəziyyətlərinə görə yaşlı insanlardan fərqlənirlər. Ona görə də ölkəmizin cinayət-prosessual qanunvericiliyində yetkinlik yaşına çatmayan şəxslərin ibtidai araşdırması qaydaları, yetkinlik yaşına çatan şəxslərin ibtidai araşdırması qaydalarından əhəmiyyətli dərəcədə fərqlənir. Cinayət-prosessual qanunvericiliyi bu sahənin fərqləndirici prosessual hüquqi normalarını müəyyən etmişdir (CPM-nin X bölməsinin 428-435-2 maddələri, CM-nin XIV bölməsinin 84-92-ci maddələri).

♦ **Abdurahmanov Şair Şeyxəli oğlu** - Milli Aviasiya Akademiyasının "Hüquq" kafedrasının baş müəllimi (Azərbaycan). E-mail: samir_3082@mail.ru

Gənc nəslin tərbiyə olunması dövlətimizin daim diqqət mərkəzindədir. Çünki onların tərbiyəsi ilə vaxtında məşğul olmamağın acı nəticəsini bəşəriyyətin təcrübəsi dəfələrlə təsdiq etmişdir. Ölkəmiz beynəlxalq hüquqi aktlara, o cümlədən, 31 may 2002-ci ildə AR Milli Məclisi tərəfindən ratifikasiya olunmuş BMT-nin "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin icrasına dair Minimal Standart Qaydalar" (Pekin Qaydaları) haqqında 29 noyabr 1985-ci il tarixli Konvensiyaya və BMT Baş Assambleyası tərəfindən 20 noyabr 1989-cu il tarixində qəbul olunmuş və 1990-cı ilin sentyabrında qüvvəyə minmiş "Uşaq Hüquqları Konvensiyası"na qoşulmuşdur. Bu Konvensiyalar yetkinlik yaşına çatmayanlara dair xüsusi müdafiə tədbirlərinin tətbiq edilməsi, insan hüquqlarının uşaqlara dair bütün növlərini - mülki, siyasi, iqtisadi, sosal və mədəni – özündə birləşdirməklə, 18 yaşdan aşağı hər bir uşağın insan hüquqlarına hörmət olunmasını və müdafiə edilməsini təsbit edir.

Yetkinlik yaşına çatmayanların iştirakı ilə keçirilən istintaq hərəkətlərinin özünəməxsus xüsusiyyətləriləri mövcüddür, çünki onların psixoloji ruhi aləmi çoxşaxəli olub, geniş variantlı olaraq, əsəb sistemi ilə bağlıdır və onların tərbiyə olunduğu, yaşadığı və təhsil aldıqları şəraitdən bilavasitə asılıdır.

Yetkinlik yaşına çatmayanların dindirilməsinə hərtərəfli hazırlaşmaq lazımdır. Birinci növbədə dindiriləcək şəxsin şəxsiyyətinin öyrənilməsi vacibdir. Taktiki üsulları seçərkən pedaqogikanın, etikanın tələbləri nəzərə alınmalıdır ki, keçirilən istintaq hərəkətləri tərbiyəvi xarakter daşısın. Dindirilmə obyektiv xarakter daşımalı, prinsipiallıqla aparılmalıdır. Müstəntiqin xarici görünüşü, nitq mədəniyyəti yüksək olmalıdır ki, onun nüfuzu belə, dindirilənin düzgün ifadə verməsinə təsir göstərsin.

Kriminalistika sahəsində tədqiqatçı alim Hans Qros vaxtilə qeyd etmişdir ki, dindirilən baçarıqsız müstəntiqə ya ifadə verməyəcək, ya da yarımçıq ifadə verəcək, dindirilənin qəlbinə yol tapan müstəntiqə isə həqiqəti deyəcək [9, s. 45-46].

"Dindirmə zamanı yalandan, qeyri səmimilikdən istifadə etmək lazım deyil, açıq şəkildə yalanı təsdiq etməklə riyakarlıqla, ikiüzlüklə, hiyləgərliklə, münaqişəli şərait yaratmaqla, dindirəni çaşdırmaqla, onu ağızdan söz qaçırmağa məcbur etmək olmaz. Bütün bunlar köhnə "axtarış polisinin" üsulları, daha çox inkvizisiya məhkəməsinə xas prosesə aid metodlar, indiki dindirməyə xas olmayan üsullardır. Nəticədə bu üsulların hamısı dindirilən şəxsdə bədxah və kinli niyyət yaradan,onu tam qaradinməz vəziyyətə salmaq üçün tətbiq edilən təzahürlərdir. Dindirmədə şahidi - səmimi olmağa dəvət etmək, onun ifadəsində olan ziddiyyətləri təhlil edib, ya da onun etirazlarına təsir göstərməkləyalan ifadə vermə və ya susma, onun və zərərçəkmiş şəxslərin ifadəsində nəzərdə tutulan təqsirli şəxslərə qarşı düşmənçilik hisslərin yaranması nəticəsində əmələ gəlir" [14].

Doğru ifadə almaq üçün müstəntiq yetkinlik yaşına çatmayanla psixoloji kontakt yaratmalıdır. Psixoloji kontakt dedikdə, müstəntiq və dindirilən arasında yaranmış etibarlı münasibət, işgüzar şərait nəzərdə tutulur ki, bu zaman dindirilən müstəntiqə iş üzrə bildiklərini könüllü danışır.

Psixoloji kontaktın yaradılması üçün hazır sxem və planlar mövcud deyil. Müsbət nəticənin əldə edilməsi, dindirilənin şəxsiyyətinin xüsusiyyətlərindən, onun dəvət olunması qaydasından, harada dindirilməsindən və kimlərin iştirak etməsindən, etibarlı şəraitin yaradılmasından asılıdır.

Dindiriləcək şəxsin əhval-ruhiyyəsinin fərdiliyi, onun işinin obyektiv istintaqında maraqlı olması kimi aspektləri nəzərə almaq lazımdır.

Yetkinlik yaşına çatmayanın istintaq orqanlarının kabinetində olması belə, onun həmin orqana qarşı hörmət, onda düzgün ifadə verməyin vətəndaşlıq borcu olması kimi hisslər yaradaraq, doğru ifadə vermək meyilliliyini artırmalıdır.

Dindirilmə yerində elə bir əlverişli şərait yaradılmalıdır ki, yetkinlik yaşına çatmayanın diqqəti yayınmasın,ona fikrini cəmləşdirməyə mane olan əşyalar olmasın. Həmçinin yaradılmış şərait dindirilənin həyəcanlanmasının qarşısını almalıdır.

Azyaşlı uşaqların onların daimi olduğu, yəni vərdiş etdikləri şəraitdə dindirilməsi məsləhətdir (məktəbdə, bağçada və s.). Dindirilmədə iştirak edən pedaqoqa, valideynlərə dindirilənin nə dərəcədə hörmət və etibar etdiyi müəyyənləşdirilməlidir, dindirilən şəxs onlardan çəkinməməlidir, utanmamalıdır, yəni valideynlərin və iştirak edən mütəxəssislərin dindirilənə münasibəti və əksinə olan münasibət dindirilməyə hazırlıq mərhələsində araşdırılmalıdır.Cünki dindirilən, valideynlərin könlünü qırmamaq üçün yalan ifadə verə bilər.

Dindirilmə prosesinə dəvət olunmuş mütəxəssis müstəntiqə psixoloji kontakt yaratmaga, lazım gələrsə, protokol tərtib etməyə kömək göstərməlidir. Müstəntiq mütəxəssisi təlimatlandırmalı, lazım gələrsə iş materialları ilə tanış etməlidir.

Dindirmə prosesinə hazırlıq mərhələsində onun dəvət olunması qaydası, dindirilənin fiziki və psixi xüsusiyyətləri, həyat tərzi, tərbiyə səviyyəsi araşdırılmalı, dindirmə zamanı əlverişli şəraitin necə yaradılacağı düşünülməlidir. 16 yaşına çatmamış şəxsləri valideynlər, pedaqoqlar, tərbiyəçilər və ya uşağın etibar etdiyi digər şəxslər vasitəsilə dəvət etmək olar. Bəzi hallarda isə, istintaq şəraitindən asılı olaraq müstəntiq heç kimə demədən, qəflətən uşaq bağçasına, məktəbə gəlib dindirməni apara bilər.

Azyaşlı zərərçəkmişi dindirərkən, nəzərə almaq lazımdır ki, zərərçəkmişlə valideynləri, müəllimləri, qonşuları söhbət ediblər və öz mülahizələrini azyaşlının yaddaşına yeridiblər, bu səbəbdən o, dindirmədə həmin mülahizələri öz fikirləri kimi qələmə verə bilər. Bəzən azyaşlı ilə ev şəraitində, onun maraqlarına uyğun söhbətlər apararaq dindirmə üçün əlverişli şərait yaratmaq olar.

Dindirməyə hazırlıq mərhələsinin axırıncı pilləsi, planın tərtib edilməsidir. Plan şəraitə uyğun olaraq dəyişkən olmalıdır ki, dindirmə prosesində müstəntiq çeviklik, cəldlik və zirəklik tətbiq edərək istədiyi məqsədə nail olsun. Geniş planlar, çox epizodlu və mürəkkəb işlərdə, həm də yetkinlik yaşına çatmayan yalan danışmağa meylli olduqda hazırlanır.

Dindirmədən əvvəl müstəntiq yetkinlik yaşına çatmayanın şəxsiyyətini müəyyən edir, ona hüquq və vəzifələri izah edir.

Müstəntiq dindirilənə qarşı xeyirxaholmalı,onunla xoş rəftar etməli,lazım gələndə isə onun qeyri-səmimi hərəkətlərinin qarşısını almalıdır.

Yetkinlik yaşına çatmayanların dindirilməsi, adətən ümumi söhbətlə başlamalı və tədricən məqsədyönlü istiqamətdə davam etdirilməlidir. Ola bilsin söhbəti pedaqoq başlasın sonra isə müstəntiq də ona qoşulsun.

Psixoloji kontaktın dərinləşdirilməsində, 16 yaşı olan şahid və zərərçəkmişlərin bilərkdən yalan ifadə verməyə və ifadə verməkdən imtina etməyə görə onların cinayət məsuliyyəti barədə xəbərdar edilməsi mühüm rol oynayır.

Müstəntiq tərəfindən taktiki, psixoloji üsullardan məharətlə istifadə edilərək, dindirmə zamanı doğru ifadənin alınması prosesi, müxtəlif tələblərə riayət etməklə həyata keçirilməlidir.

Həmin tələblər aşağıdakılardır:

1. Dindirmə qısamüddətli, yəni uzunsürməyən olmalıdır.

2. Dindirmədə müvafiq düzgün temp, danışıq tonu seçilməli, açıq-saçıqlıq,çox sərtlik, maraqsız və darıxdırıcı təzahürlər olmamalıdır.

3. Müstəntiq özünün obyektivliyini nümayiş etdirməlidir.

4. Şübhəli və təqsirləndirilən şəxslərə boş vədlər verməməlidir.

5. Dindirilənin maraqlarından asılı olaraq dindirməni sərbəst söhbətlə başlamaq olar.

6. Dindirilənə qədər onunla hadisə barədə kimlərin və nə barədə söhbət etdiyi aydınlaşdırılmaqla, ona təsir göstərmək istəyən şəxsləri müəyyən etmək olar.

7. Sualları mümkün dərəcədə sadələşdirmək, detallaşdırmaq lazımdır.

8. Dindirmə prosesinə pedaqoqu, psixoloqu, valideynləri, onları əvəz edən şəxsləri, yetkinlik yaşına çatmayanın etibar etdiyi, onun üçün nüfuzlu,hörmətli olan şəxsləri dəvət etmək olar.

9. İstiqamətləndirici suallardan istifadə edilməməlidir.

10. Dindirmənin nəticələrini protokol, videoyazı vasitəsilə sənədləşdirmək lazımdır.

Göstərilən tələblərə riayət edilməklə keçirilən dindirilmədə həmişə müsbət nəticə almaq mümkündür.

Yetkinlik yaşına çatmayanların dindirilməsi zamanı müxtəlif taktiki üsullardan istifadə olunur. Həmin taktiki üsullar dindirmənin mərhələlərindən asılı olaraq, hazırlıq mərhələsinə və dindirmə prosesində tətbiq olunan üsullara bölünürlər.

Hazırlıq mərhələsinə aid olan üsullara aiddir: yetkinlik yaşına çatmayanın şəxsiyyətinin öyrənilməsi, onunla psixoloji kontaktın yaradılması, onun dindirmənin predmetinə və prosesin digər iştirakçılarına münasibətinin müəyyənləşdirilməsi.

Bu hallardan asılı olaraq didirmənin taktikasını müəyyən etmək olar.

Belə taktiki üsullardan - söhbət etmə yolu ilə emosional gərginliyin aradan qaldırılması, dindirilən şəxsə qarşı diqqətin artırılması kimi yollardan istifadə etmək olar.

Dindirmə prosesində isə inandırma yolu ilə düzgün ifadə verməyəyönəltmək,ifadənin ayrı-ayrı cəhətlərini təhlil etmək və oradakı ziddiyyətləri aydınlaşdırmaq, dindirilən şəxsin yaddaşının bərpa olunmasına və bildiklərini ifadə edə bilməsinə köməklik göstərmək, yada salmaq, xırdalamaq, dəqiqləşdirmək, müqayisə etmək, yalan danışmanın qarşısını almaq kimi üsullardan istifadə etmək olar.

Münaqişə şəraitində keçən dindirmə zamanı dindirilənin müsbət cəhərtlərini stimullaşdırmaq, ona sübutları hissə-hissə təqdim etmək onun yalanının üzə çıxarılması üçün müstəntiqdə kifayət qədər sübutların olması təsəvvürünü yaratmaq, müəmmalı vəziyyət yaratmaq kimi üsullardan istifadə etmək lazımdır [13, s. 120].

Həmçinin dindirilənin hərtərəfli və tam dediklərini qeyd etməklə, sonradan verilən ifadəni təhlil edərək, mövcud olan ziddiyyətləri onun nəzərinə çatdırmaqla, yalan ifadə verməsinin cəfəngiyyat olmasını izah etmək, digər ardıcıllıqla təkrar dindirmə, dolayı dindirmə aparmaq mümkündür.

"Dindirilən şəxs müstəntiqin münasibətində xeyirxahlıq, düzgünlük, obyektivlik, humanistlik kimi keyfiyyətlər görməlidir. Müstəntiq öz hərəkətlərində səliqəli, təmkinli və ardıcıl olmalı, mədənirəftarı ilə dindirdiyi şəxsin rəğbətini qazanmalıdır.

Beləliklə, müstəntiq bütün hərəkətlərilə dindirilən şəxsin inamını qazanmalıdır".

Yetkinlik yaşına çatmayanlardan doğru ifadə almaq üçün taktiki-psixoloji üsullardan məharətlə istifadə etməklə nail olmaq olar.

Yetkinlik yaşına çatmayanların dindirilməsinin taktiki üsullarına tələblər aşağıdakılardır:

1. Dindirmə prosesi müxtəsər və üzun sürməyən olmalıdır.

2. Dindirmə zamanı düzgün səs tonunu seçmək vacibdir: biganəlik, qaşqabaqlılıq, süstlük kimi hallara yol verilməməlidir.

3. Psixoloji kontaktın yaradılmasına nail olmaq üçün müstəntiq obyektivliyini nümayiş etdirməlidir.

4. Şübhəli şəxslərə, təqsirləndirilənlərə yalandan mümkün olmayan vədlərin verilməsi kimi hallar istisna olunmalıdır.

5. Dindirməyə dindirilənin maraqları ətrafında söhbət etməklə başlamaq (futbol, digər idman növü, musiqi, kitablar və s.) olar.

6. Dindirmə predmeti barədə kiminlə söhbət etməsi, kimlərin hansı məsləhətləri verməsi, beləliklə ona göstərilən psixoloji təsir mənbələrini müəyyənləşdirmək vacibdir.

7. Dindirmə zamanı suallar maksimum sadələşdirmə, asanlaşdırma, ətraflı surətdə, dəqiqliklə tərtib olunaraq verilməlidir.

8. Dindirmə prosesində yetkinlik yaşına çatmayanın hörmət etdiyi, ondan çəkinmədiyi, nüfuzlu mütəxəssisləri, valideynləri, qanuni nümayəndələri cəlb etmək.

9. İstiqamətləndirici suallara yol verməmək.

10. Dindirilənin ifadəsini dindirmə prosesi tamamlandıqdan sonra qeydə almaq lazımdır ki, o ifadə verəndə fasilələrə yol verilməsin.

11. Dindirmə prosesini və nəticələri protokoldan əlavə videolar, səsyazma cihazları vasitəsilə də qeydə almaq lazımdır.

Əgər müstəntiq hiss etsə ki, dindirilən şəxs hadisənin bəzi hallarını yadından çıxarıb, onda ona kömək məqsədilə aşağıdakı taktiki üsullardan istifadə etmək olar:

1. Dindirməni müxtəlif istiqamətlərdə aparmaq, yəni yadında qaldıqlarını sərbəst danışmaq, hadisənin baş verdiyi məqamları ortadan, axırdan danışmaq.

2. Cinayət faktını görənə qədər olan hadisələri yada salmaq olar ki, ona oxşar digər hadisələrə rast gəlib-gəlməməsini dəqiqləşdirsin və s.

3. Dindirilənə maddi sübutları, hadisə yerinin planını, sxemini, çertyoju, fotocədvəlləri, digər dindirilən şəxslərin ifadələrindən fraqmentləri təqdim etmək.

4.Yetkinlik yaşına çatmayanı bilavasitə hadisənin baş verdiyi yerdə dindirmək.

A.H.Vasilyev və A.M. Korneyeva cinayət iştirakçıları olan, lakin yaş həddinə görə cinayət məsuliyyətinə cəlb etmək mümkün olmayan, yetkinlik yaşına çatmayan şahidlərin dindirilməsinə məxsus xüsusiyyətləri qeyd edirlər. Onlar göstərirlər ki,həmin şahidlərə prosessual vəziyyətlərini izah etmək lazımdır ki, ifadə verməkdən qorxmasınlar, çəkinməsinlər, çünki onlar cinayət subyekti deyillər.

Azyaşlı şahid və zərərçəkmişlər sərbəst danışma yolu ilə ifadə verməkdə çətinlik çəkirlər. Ona görə də müstəntiqin və iştirak edən pedaqoqun suallarına cavab verərək, onlar gördükləri hadisə barədə lazımi məlumat verə bilərlər. Çünki yetkinlik yaşına çatmamışlar bir çox hadisələri tam və dəqiq qavraya bilmirlər, lakin onlar bəzən hadisələrin elə xırda cəhətlərini yadda saxlayırlar ki, yaşlı şəxslər həmin cəhətlərə bir o qədər də əhəmiyyət vermirlər.Bu, onunla əlaəqdardır ki, həddi-buluğa çatmamışlar bütövlükdə hadisələri deyil, onun ayrı-ayrı cəhətlərini qavrayırlar [8, s. 191].

Yetkinlik yaşına çatmayanlardan insanın xarici görünüşü barədə məlumat alarkən, xüsusi terminlərdən istifadə etmək məsləhət görülmür. İnsanın xarici görünüşünün əlamətləri haqqında məlumat almaq üçün dindirmə prosesində rəsmlərdən, fotoşəkillərdən istifadə etmək, tanıdıqları artist və müğənnilərə oxşarlığı barədə soruşmaq, kompüterdə olan proqramlardan istifadə etmək

vacibdir. Özünün tanıdıqları və qohumlarından kimə oxşadıqları barədə suallar vermək olar. Dindirmə prosesində azyaşlıya bir neçə nəfəri də dəvət edib göstərməklə, cinayət törətmiş şəxsin boyu, bədən quruluşu və xarici görünüşü barədə məlumat almaq olar.

Kriminalistika və məhkəmə psixologiyası elmləri yetkinlik yaşına çatmayanların yalan ifadələri barədə xəbərdarlıq edilməsi və qarşısının alınıb ifşa edilməsi istiqamətində aşağıdakı üsulları hazırlamışdır:

1. İlkin yalan ifadəyə diqqəti cəmləşdirməklə, gələcəkdə yalana yol verilməsinin qarşısını almaq olar. Bunu, işdə olan sübutları təqdim etmə yolu ilə, ona məqsədəyönlü psioxoloji təsir göstərməklə, dindirmənin ilkin mərhələsində yalanifadə verməsinin qarşısını almaq.

2. Müstəntiqin hər şeydən xəbəri olduğu barədə dindiriləndə təsəvvür yaratmaq.

3. Dindirmə zamanı tam dəqiq olan faktlar nümayiş etdirməklə yalanın qarşısını almaq.

4. Yetkinlik yaşına çatmayanların sərbəstliyə və cəsarətliliyə yönəlmiş duyma qabiliyyətini lazımi səmtə yönəltmək.

5. Yetkinlik yaşına çatmayanların qarşısında istintaqa tam məlum olan faktlar üzrə nəzarətedici suallar qoymaq, onun vaxtı və məsafəni nə dərəcədə düzgün qavrayıb-qavramadığını müəyyən etmək.

6. Törədilmiş cinayətə qədər mövcud olan hadisələrlə bağlı suallar verməklə, dolayı yolla istintaq aparılan hadisə ilə bağlı suallar vermək.

7.Yetkinlik yaşına çatmayanın cinayət törədilənədək, həmin anda və ondan sonrakı vaxtda olan danışıqlarını təhlil etmək. Çünki yalan ifadəni xırda detallarla quraşdırmaq çətindir, bu üsuldan yalanı üzə çıxarnaq üçün istifadə olunur.

8. Yetkinlik yaşına çatmayanlarla birlikdə müstəntiq, cinayət işində olan sübutları təhlil edir ki, o, yalan ifadə vermək niyyətindən əl çəksin.

9. Mövcud sübutları hissə-hissə təqdim etmək ki, onda qorxunc vahimə və əsəb gərginliyi yaranmasın.

10. Sual-cavab üsulundan istifadə edərək, həm də sübutları təqdim etməklə onun verdiyi yalan ifadələri ifşa etmək.

11. Digər dindirilən və düzgün ifadə verən şəxslərin protokol və videoyazı,səsyazılarından fraqmentləri təqdim etmək.

12. İfadəsində olan ziddiyyətləri aradan qaldırmaq üçün dindirilənə çaşdırıcı suallar vermək. Onun öz ifadəsində olan, işin digər sübutları ilə uyğun gəlməyən ifadəsini nə ilə izah etməsi kimi suallarla düzgün ifadə verməyə vadar etmək.

Dindirilənin yaşından və tutduğu mövqeyindən asılı olaraq göstərilən üsullar yaranmış istintaq şəraitinə uyğun seçilərək tətbiq olunur.

## Bibliografiya


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. - Bakı: Hüquq Yayın Evi, 2021. - 780 s.
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. - Bakı: Hüquq Yayın Evi, 2022. - 856 s.
3. Abdurahmanov Ş.Ş. və başqaları. Kriminalistika: dərslik. - Bakı, 2010.
4. BMT-nin yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin icrasına aid 29 noyabr 1985-ci il tarixli minimal standart qaydaları (Pekin qaydaları) (31 may 2002-ci il tarixli AR

qanunu ilə təsdiq edilmişdir). [Elektron resurs]. URL: https://e-qanun.az/framework/8487 // https://e-qanun.az/framework/1034 (müraciət tarixi: 14.04.2022)

5. Kriminalistika: dərslik. Bakı, 2021.
6. Süleymanov C.İ., Abdullayev S.Ə., Mahmudov A.M. İbtidai istintaq mərhələsində təqsirləndirilən şəxsin dindirilməsi taktikası. - Bakı, 2009.
7. Белкин Р.С. Очерки криминалистической тактики. Учебное пособие. - Волгоград: ВСМ МВД РФ, 1993. - 200 с.
8. Васильев А.Н., Карнеева Л.М. Тактика допроса при расследовании преступлений. - М.: Юрид. лит., 1970. - 208 с.
9. Гросс Ганс. Руководство для судебных следователей как система криминалистики. - М.: ЛексЭст, 2002. - 1088 с.
10. Закатов А.А. Психологические особенности тактики производства следственных действий с участием несовершеннолетних. Учеб. пособие. - Волгоград: ВСМ, 1979. - 94 с.
11. Порубов Н.И. Допрос в советском уголовном процессе и криминалистике. – Минск: Вышэйш. шк., 1968. – 276 с.
12. Руководство для следователей. В 2-х частях. Под ред. В.В. Найденова, П.А. Олейника. – М.: Юрид. лит., 1981. – 992 с.
13. Сарыджалинская К.Г. и др. Следственная тактика. Учебник для ВУЗов. - Баку: Просвещение, 1991.
14. Якимов И.Н. Криминалистика. Уголовная тактика. Общая часть. М.: Изд. Ком. Акад., 1929. - 312 с.

**Абдурахманов Ш.Ш.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.8-16**
**УДК: 343.1**

## Тактические и психологические особенности допроса несовершеннолетних

**Аннотация**: Рассматриваются практические и психологические особенности этой ювенальной проблемы.

Раскрываются вопросы создания психологического контакта с несовершеннолетними, а также применяемые методы и способы получения правдивых показаний. Кроме того, исследуются проблемы разрешения возникших конфликтных ситуаций, методы и способы преодоления дачи ложных показаний со стороны несовершеннолетних в процессе допроса.

**Ключевые слова:** несовершеннолетний; допрос, предварительное расследование, расследование, тактический прием, следователь, ювенальная юстиция, потерпевший, дознание, тактика допроса.

♦ **Абдурахманов Шаир Шейхали оглы** – старший преподаватель кафедры «Право» Национальной академии авиации (Азербайджан). E-mail: samir_3082@mail.ru

**Библиография**

1. Уголовный кодекс Азербайджанской Республики. - Баку: Huquq Yayın Evi, 2021. - 780 с. (на азерб. яз.).

2. Уголовно-процессуальный кодекс Азербайджанской Республики. - Баку: Huquq Yayın Evi, 2022. - 856 с. (на азерб. яз.).

3. Абдурахманов Ш.Ш. и др. Криминалистика. Учебник. Баку, 2010. (на азерб. яз.).

4. Минимальные стандартные правила ООН по осуществлению правосудия в отношении несовершеннолетних от 29 ноября 1985 года (Пекинские правила) (утверждены Законом Азербайджанской Республики от 31 мая 2002 года). [Электронный ресурс]. Режим доступа: https://e-qanun.az/framework/8487 // https://e-qanun.az/framework/1034 (дата обращения: 14.04.2022) (на азерб. яз.).

5. Криминалистика. Учебник. - Баку, 2021 (на азерб. яз.).

6. Сулейманов Д.И., Абдуллаев С.А., Махмудов А.М. Тактика допроса обвиняемого на предварительном следствии. - Баку, 2009 (на азерб.яз.).

7. Белкин Р.С. Очерки криминалистической тактики. Учебное пособие. - Волгоград: ВСМ МВД РФ, 1993. - 200 с.

8. Васильев А.Н., Карнеева Л.М. Тактика допроса при расследовании преступлений. - М.: Юрид. лит., 1970. - 208 с.

9. Гросс Ганс. Руководство для судебных следователей как система криминалистики. - М.: ЛексЭст, 2002. - 1088 с.

10. Закатов А.А. Психологические особенности тактики производства следственных действий с участием несовершеннолетних. Учеб. пособие. - Волгоград: ВСМ, 1979. - 94 с.

11. Порубов Н.И. Допрос в советском уголовном процессе и криминалистике. - Минск: Вышэйш. шк., 1968. - 276 с.

12. Руководство для следователей. В 2-х частях. Под ред. В.В. Найденова, П.А. Олейника. - М.: Юрид. лит., 1981. - 992 с.

13. Сарыджалинская К.Г. и др. Следственная тактика: учебник для ВУЗов. - Баку: Просвещение, 1991.

14. Якимов И.Н. Криминалистика. Уголовная тактика. Общая часть. - М.: Изд. Ком. Акад., 1929. - 312 с.